AZƏRBAYCAN XƏBƏRLƏRİ

Xalq Cəbhəsi üzvünə 30 sutka həbs verildiyi deyilir

Noyabr 04, 2026



Mircəmil Ağayev

Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Sabirabad şöbəsinin fəalı **Mircəmil Ağayev**in 30 sutkalıq inzibati həbs olunduğu bildirilir. Noyabrın 4-də AXCP-nin yaydığı məlumatda qeyd edilir ki, fəal bir gün əvvəl — noyabrın 3-də AXCP sədri Əli Kərimli və müavini Məmməd İbrahimin məhkəməsində iştirak etmək üçün Bakıya gəlibmiş. Əlavə edildiyinə görə, elə həmin gün Sabirabada qayıdan M.Ağayevi evinin qarşısında mülki geyimli şəxslər saxlayaraq naməlum istiqamətə aparıblar.

AXCP-dən bildirildiyinə görə, o, rəsmi olaraq İnzibati Xətalar Məcəlləsinin 535.1-ci maddəsi ilə (Polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra

edərkən, onların qanuni tələblərinə qəsdən tabe olmamaqda) təqsirləndirilib. Partiya fəalın şərləndiyini iddia etsə də işlə bağlı başqa detallardan bəhs etmir. Rəsmi qurumlardan isə hələlik bu deyilənlərə hər hansı münasibət almaq mümkün olmayıb.

Son illər AXCP-nin bir çox üzvü vaxtaşırı olaraq inzibati qaydada həbs edilir. Hazırda partiyanın 20 civarında üzvü, eləcə də təşkilatın sədri Əli Kərimli uzun müddətdir ki, həbsdədir. Onlara qarşı müxtəlif ittihamlar irəli sürülsə də, AXCP bu həbslərin siyasi sifariş olduğunu bəyan edir.

Ə.Kərimli və M.İbrahim Cinayət Məcəlləsinin 278.1-ci (hakimiyyəti zorla ələ keçirməyə yönələn hərəkətlər) maddəsi ilə ittiham olunurlar. Bu maddə 12 ildən 20 ilədək və ya ömürlük azadlıqdan məhrumetmə cəzasını nəzərdə tutur. Hər iki siyasətçi ittihamları əsassız və siyasi motivli sayır.

Hüquq müdafiəçilərinin son hesabatlarına görə, Azərbaycan həbsxanalarında 322 siyasi məhbus var. Rəsmilər isə ölkədə siyasi baxışlarına görə həbslərin olması barədə iddiaları rədd edir və həmin şəxslərin törətdikləri konkret cinayət əməllərinə görə cəzalandırıldıqlarını bildirirlər.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur